# QARABAĞIN TAXIL BÖCƏKLƏRI (COLEOPTERA, CARABIDAE, ZUBRUS, HARPALUS)

**İradə Nuriyeva**

*AMEA-nın Zoologiya İnstitutu*

Taxıl böcəkləri – dənli bitkilərin: buğdanın, arpanın, çovdarın təhlükəli ziyanvericiləridir. Bu böcəklər həm sürfə, həm də yetkin mərhələdə taxıllara ziyan vururlar. Sürfələri taxılların yeni cücərtilərini yeyir, yetkin böcəklər isə sünbüllərdəki toxumlarla qidalanaraq təhlükəli ziyanverici sayılır. Bəzi hallarda kütləvi surətdə çoxalaraq taxıl zəmilərini məhv edirlər.

Azərbaycan ərazisində keçən əsrin 50-60-cı illərində N.H.Səmədov tərəfindən kənd təsərrüfatına ziyan verən Zabrus və Harpalus cinslərinə aid 14 növ bitki ilə qidalanan karabid böcəklər öyrənilmişdir. Bunlardan 4 növün Qarabağ ərazisində də yayıldığı göstərilmişdir:

Dəstə Coleoptera, fəsilə Carabidae, yarımfəsilə Carabinae, triba Amarini, cins Zabrus.

1. *Zubrus trinii* Fisch. (*Zabrus tenebrioides* Goeze) Dağ taxıl böcəyinin Laçın- Kəlbəcər rayonları ərazisində yayıldığı göstərilmişdir.

2. *Zabrus spinipes rugosus* Men. Böyük taxıl böcəyi Laçın-Kəlbəcər rayonlarında yayılmışdır.

3. *Harpalus (Pseudophonus) pubescens* Müll.= *Harpalus rufipes* Geer. İnkişafının sürfə və yetkin yaş mərhələlərində taxıl bitkilərinin toxumlarına və cücərtilərinə ziyan vurur. (6 IV.1954, Ağdam rayonunun Qaradağlı kəndindən toplanmışdır).

4. *Harpalus (Pardileus) calceatus* Duft.– darı böcəyi Dağlıq Qarabağda yayılmışdır.

Gündüzlər taxıl böcəklərini asanlıqla tapmaq mümkün deyil, bu vaxtlar böcəklər torpaqda daşların və ya torpaq kütlələrinin altında gizlənir. Onlar gecələr sünbüllərin üzərinə qalxaraq, dənlə qidalanırlar. Taxıl yığıldıqdan sonra adətən böcəklər taxıl bitkisi çox olan yerlərdə cəmləşir və belə yerlər onların çoxalması üçün əlverişli şəraitə malikdir.

İşğaldan azad edilmiş torpaqlarda erməni təcavüzkarlarının qeyri-qanuni taxılçılıqla məşğul olduqlarını nəzərə alsaq, bu bölgələrdə ziyanverici taxıl böcəklərinin mövcudluğunu söyləmək olar.